# SUVERENLİYİMİZİ TƏMİN EDƏNLƏR



**ŞADMANOV ƏKRƏM YUNUS OĞLU**

Şəhid polkovnik-leytenant Əkrəm Yunus oğlu Şadmanov 1 mart 1984-cü ildə Kəlbəcər rayonunun Zivel kəndində anadan olmuşdur. 1990-cı ildə Kəlbəcər rayon Zivel kənd tam orta məktəbində orta təhsilinə başlamış, 1993-cü ildə Kəlbəcər rayonu erməni vandalları tərəfindən işğal edildikdən sonra orta təhsilini Göygöl rayon 6 nömrəli tam orta məktəbdə, 1994-cü ildən isə Kəlbəcər rayon 20 nömrəli tam orta məktəbdə davam etdirmişdir. 1998-ci ildə həmin məktəbin 8-ci sinfini bitirib Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuş, 2001-ci ildə hərbi liseydən məzun olaraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2005-ci ildə ali hərbi təhsilini motoatıcı ixtisası üzrə fərqlənmə ilə bitirmişdir. Sonra isə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinin icrasına başlamışdır. 2005-ci ilin iyun ayından 2017-ci ilin may ayınadək Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzində taqım, bölük, tabor komandirinin Maddi-Texniki Təminat işləri üzrə müavini, qərargah rəisi və tabor komandiri vəzifələrində xidmət etmişdir. 2017-ci ilin yanvar ayından 2019-cu ilin dekabr ayınadək Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə tabor komandiri, hərbi hissənin döyüş hazırlığı üzrə bölmə rəisi vəzifələrində xidmət etmişdir. Nümunəvi hərbi xidmət müddətində 3-cü, 2-ci dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", 3-cü, 2-ci, 1-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalları, Azərbaycan Silahlı Qüvvələrinin 90, 95 və 100 illik yubileyləri ilə bağlı təsis edilən yubiley medalları ilə təltif edilmiş, mayor hərbi rütbəsinədək yüksəlmişdir.

Azərbaycan Ordusunun mayoru olan Əkrəm Şadmanov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində tabor komandiri kimi iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə sinəsini güllələrə sipər etmiş, böyük mübarizliklə, fədakarlıqla vuruşaraq fərqlənmiş, düşmənlərin kabusuna çevrilmişdir. Bir neçə vacib yüksəkliklərin azad edilməsində xüsusi şücaəti olmuşdur. Şuşa şəhəri ətrafında olan bir neçə yüksəkliyin müdafiəsi döyüş gedişatında məhz Əkrəm Şadmanovun taboruna həvalə olunmuşdur. Şadmanovun taboru həmin yüksəklikləri böyük rəşadətlə müdafiə etmişdir. Qəhrəmanımız Vətən müharibəsində göstərdiyi şücaətlərə görə vaxtından əvvəl polkovnik-leytenant hərbi rütbəsi almış, həmçinin cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə" medalları və baş nazir Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Vətən müharibəsindən sonra Əkrəm Şadmanov hərbi xidmətini davam etdirmişdir. O, Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissənin komandir müavini olmuşdur.

Əkrəm Şadmanov 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, düşmən təxribatının qarşısının alınmasında, bölmələrin idarə olunmasında və Kəlbəcər rayonunda yerləşən Kömürdağ yüksəkliyinin düşməndən azad edilməsində böyük xidmətlər göstərmişdir. Döyüşlərdən sonra hərbi xidmətini davam etdirən Əkrəm Şadmanov 2023-cü ilin avqustunda xidmət etdiyi hərbi hissənin qərargah rəisi - hərbi hissə komandirinin birinci müavini vəzifəsinə təyin olunmuşdur.

Əkrəm Şadmanov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir.Ağdam-Xocalı istiqamətində döyüşlərin planlaşdırılmasında və aparılmasında xüsusi bacarıq nümayiş etdirərək bir neçə hakim yüksəkliklərin düşməndən azad edilməsində yaxından iştirak etmişdir. Qəhrəmanımız antiterror əməliyyatlarından sağ-salamat çıxsa da mənfur erməni vandalları hərbçimizin qəhrəmanlıqla dolu olan həyatının qəsdinə durdular.

24 sentyabr 2023-cü il, saat 17:35 radələrində Ağdam rayonunun Gülablı kəndində Azərbaycan Ordusuna məxsus "KamAZ" markalı hərbi nəqliyyat vasitəsi minaya düşmüşdür. Mövqelərimizin təminat yolunda erməni qəsbkarlarının əvvəlcədən quraşdırdığı tank əleyhinə minanın partlaması nəticəsində polkovnik-leytenant Əkrəm Şadmanov əsgər Tural Seyidov ilə birlikdə Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəman hərbçimizin nəşi İkinci Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, Solmaz və Araz adlı övladları yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Əkrəm Şadmanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



**HƏMİDLİ HƏMİD ƏLİSAHİB OĞLU**

Şəhid kapitan Həmid Əlisahib oğlu Həmidli 28 iyul 1996-cı ildə Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olmuşdur. Əslən Qubadlıdan idi. 2010-cu ildə orta təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirən Həmid 2013-cü ildə həmin hərbi liseydən məzun olmuş və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2017-ci ildə ali hərbi təhsilini tankçı ixtisası üzrə müvəffəqiyyətlə başa vuraraq Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə leytenant rütbəsində və tank taqım komandiri vəzifəsində xidmət etmişdir. Hərbi vəzifəsinin icrasına başlayandan 6 ay sonra xidmətdə fərqləndiyi üçün tank bölüyünün komandiri vəzifəsinə təyin olunmuşdur. 2019-cu ildə Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü" adı uğrunda keçirilən yarışda bölüyü ilə birgə 1-ci yeri qazanmışdır. Hərbi xidmət müddətində Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülmüş, baş leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Həmid Həmidli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, fərqlənmişdir. Düşmənin bir sıra texnikasını sıradan çıxarmış, Füzuli istiqamətində Rüzgar dağı adlanan yüksəklikdə düşmənin 100-dən artıq şəxsi heyətini, Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində düşmənə aid bir çox texnikanı və həmçinin bir tankı məhv etmişdir. Həmid döyüşlərdə bir neçə dəfə yaralansa da sağaldıqdan sonra yenidən döyüş meydanına qayıtmışdır. 8 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən Həmidin tankı raketlə vurulur. Həmid və 3 heyət üzvü ağır yanıq xəsarətləri ilə tankdan çıxırlar. Həmid bu zaman çox ağır şəkildə yaralansa da sağaldıqdan sonra hərbi xidmətini davam etdirir. Qəhrəmanımız Hadrut istiqamətində gedən döyüşlərdə ağır yaralansa da gecədən səhərə qədər döyüşə davam edir və yaralı əsgərləri döyüş meydanından çıxarır. Həmid Həmidli Vətən müharibəsində şanlı Zəfərimizin qazanılması yolunda böyük əmək sərf etmiş, şücaət və qəhrəmanlıq göstərmişdir. Əmisi çavuş Əlizamin İsgəndərov Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Vətən müharibəsi bitdikdən sonra Həmid Həmidli cənab Prezidentimiz İlham Əliyev tərəfindən "İgidliyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur. "Şücaətə görə" medalına da layiq görülən baş leytenant Həmid Həmidliyə Vətən müharibəsi bitdikdən sonra kapitan rütbəsi verilmişdir. O, hərbi xidmətini bu rütbədə davam etdirmişdir.

Müharibədən sonra Həmid Həmidli kütləvi informasiya vasitələrinin diqqətindən yayınmamışdır. Qəhrəmanımız sağlığında öz döyüş yolu ilə bağlı bir çox kütləvi informasiya vasitələrinə müsahibə vermiş, müsahibələrində şəhidlərimizi kədər və qürur hissi ilə yad etmiş, ordumuzun zəfərindən böyük fəxrlə danışmışdır.

Həmid Həmidli 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə böyük rəşadət və igidlik göstərmişdir. Kapitan Həmid Həmidli 19 sentyabr 2023-cü ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Həmid Həmidli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



***Sevindik NƏSİBOĞLU,***
***11-ci sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***